**Səmərəli vergi mühitinin təmin edilməsi haqqında**
**NİYYƏT RAZILAŞMASI**

Bundan sonra "Tərəflər" adlandırılacaq,

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərovun şəxsində Azərbaycan Respublikasının Vergilər Nazirliyi,

Sədr Vahid Novruzovun şəxsində Azərbaycan Respublikasının Auditorlar Palatası,

İdarəedici Partnyor Mövlan Paşayevin şəxsində "Praysvoterhauskupers İstern Yurop B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı,

İdarəedici Partnyor Nuran Kərimovun şəxsində "Deloitte & Touche" Məhdud Məsuliyyətli Auditor Cəmiyyəti,

Vergi və hüquq üzrə Partnyor Arzu Hacıyevanın şəxsində "Ernst & Yanq Holdinqs (SİAYES) Bİ.Vİ." şirkətinin Azərbaycan Respublikasındakı filialı,

Vergi və hüquq üzrə Partnyor Müşfiq Əliyevin şəxsində "KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti:

- Azərbaycan Respublikasında həyata keçirilən davamlı iqtisadi siyasəti və islahatları, o cümlədən irimiqyaslı sosial-iqtisadi konsepsiyaların, strategiyaların və proqramların qəbul edildiyini və bu islahatların davamlılığını təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş iqtisadiyyatın mövcud vəziyyətinin təhlilinə əsaslanan və ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin təsdiq edildiyini nəzərə alaraq;

- Vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qurulması və tənzimlənməsində birbaşa ünsiyyətlə yanaşı, vergi ödəyicilərinə audit və məsləhət xidmətləri göstərən şirkətlər vasitəsi ilə qurulan ünsiyyətin əhəmiyyətli rolunu anlayaraq;

- Sahibkarlar tərəfindən aparılan əməliyyatlar üzrə uçotun və hesabatlılığın şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsi və ümumilikdə vergi ödəyiciləri ilə vergi orqanları arasındakı münasibətlərin çevikliyinin artırılması və fikir ayrılıqlarının minimuma endirilməsinin təmin edilməsi niyyətini bəyan edərək;

- Vergi orqanlarının və vergi ödəyicilərinin üzərinə düşən inzibati yükün minimallaşdırılması baxımından nümunəvi vergi ödəyicisi və şəffaf vergi partnyoru statuslarına malik olan, müvafiq meyarlara cavab verən vergi ödəyicilərinin sayının artırılması istiqamətində birgə fəaliyyət göstərilməsinin faydalı olacağını hesab edərək;

bu Niyyət Razılaşmasını (bundan sonra – Razılaşma) imzaladılar.

## 1. Əməkdaşlıq istiqamətləri

1.0. Tərəflər yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün aidiyyəti üzrə aşağıdakı istiqamətlərdə qarşılıqlı əməkdaşlığa dair razılığa gəlirlər:

1.0.1. xidmət etdikləri vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatların dəqiq və aydın uçotunun aparılmasına köməklik göstərilməsi, onların yarana biləcək vergi öhdəlikləri barədə qanunvericiliyə uyğun məlumatlandırılması;

1.0.2. xidmət etdikləri vergi ödəyiciləri tərəfindən könüllü əməletmənin səviyyəsinin artırılması istiqamətində işlərin görülməsi;

1.0.3. xidmət etdikləri vergi ödəyiciləri ilə vergi orqanları arasında yaranan fikir ayrılıqları və qanunvericiliyin aydın olmayan məqamlarının aydınlaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında inam və etimadın səviyyəsinin yüksəldilməsi məqsədilə qarşılıqlı müzakirələrin aparılması və məsələlərin məhkəməyəqədər inzibati qaydada həllinə cəhd edilməsi;

1.0.4. intizamlı vergi ödəyicilərinin fəaliyyəti üzrə aparılan yoxlamalarda risk əsaslı nəzarət metodunun tətbiqi və vergi nəzarəti tədbirlərinin minimuma endirilməsinə səy göstərilməsi;

1.0.5. şəffaf vergi partnyoru statusunu almış vergi ödəyicilərinin vergi inzibatçılığının sadələşdirilməsinə səy göstərilməsi;

1.0.6. bununla da qarşılıqlı münasibətlərin daha çevik və mübahisəsiz müstəvidə həyata keçirilməsinə nail olunmasına çalışılması.

## 2. Əməkdaşlıq formaları

2.0. Bu Razılaşmanın 1-ci hissəsində göstərilən istiqamətlərdə əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

2.0.1. yazışmalar və çoxtərəfli görüşlər formasında müzakirələrin və məsləhətləşmələrin aparılması;

2.0.2. vergi qanunvericiliyinə edilən dəyişikliklərin müzakirəsi və müvafiq təlimlərin təşkil edilməsi;

2.0.3. Tərəflərin qarşılıqlı razılığına əsasən müəyyən edilən digər formalar.

## 3. Əməkdaşlıq çərçivəsində mübadilə olunan məlumatlar

Bu niyyət razılaşması Tərəflərin öz fəaliyyəti ilə bağlı vergi, kommersiya, peşə sirri hesab edilən və qorunması qanunvericiliklə tələb olunan hər hansı məlumatın digər Tərəfə və ya Tərəflərə açıqlanması ilə bağlı öhdəlik yaratmır.

## 4. Razılaşmanın qüvvəyə minməsi, müddəti və xitamı

4.1. Bu Razılaşma 1 il müddətində bağlanır və bu müddət bitdikdən sonra Tərəflərin hamısının Razılaşmaya xitam vermək barədə qərarı olmadıqda onun qüvvəsi növbəti 1 (bir) illik müddətə uzadılmış hesab edilir.

4.2. Tərəflərdən hər biri istənilən vaxt bu Razılaşmadan çıxmaq istəyi barədə bütün digər Tərəfləri yazılı şəkildə məlumatlandırmaqla, özünün Razılaşmada iştirakına xitam verə bilər.

4.3. Bu Razılaşmanın Tərəflərin hər hansı birinə münasibətdə qüvvədən düşməsi onun digər Tərəflərə münasibətdə də qüvvədən düşməsi hesab edilmir.

**5. Yekun müddəalar**

5.1 Bu Razılaşma 10 mart 2017-ci il tarixində Bakı şəhərində, Azərbaycan dilində , 6 (altı) eyni mətnli nüsxədə imzalanmışdır.

5.2. Bu Razılaşma Tərəflərin niyyətlərini ifadə edir və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş öhdəliklərdən əlavə onlar arasında hüquqi münasibət, hüquq və öhdəliklər yaratmır.

**Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından**

**Sahib Ələkbərov**

**Azərbaycan Respublikasının Auditorlar Palatası adından**

**Vahid Novruzov**

**"Praysvoterhauskupers İstern Yurop B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı adından**

**Mövlan Paşayev**

**"Deloitte & Touche" Məhdud Məsuliyyətli Auditor Cəmiyyəti adından**

**Nuran Kərimov**

**"Ernst & Yanq Holdinqs (SİAYES) Bİ.Vİ." şirkətinin Azərbaycan Respublikasındakı filialı adından**

**Arzu Hacıyeva**

**"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti adından**

**Müşfiq Əliyev**